# PUL GİZLƏTMƏYİ TƏRGİTDİM




Ömrüm boyu dostlarımın yanında diligödək, üzüqara olmuş, xəcalətli qalmışam. Səbəbi...

Səbəbi o olub ki, heç vaxt əlimi cibimə ata bilməmişəm. Atmağın nə faydası? Onsuz da "siçanlar oynaşan" cibimdən heç nə çıxası deyil. Arvadım onları elə "təmizləməyib" ki, nə isə çıxsın. Ən mahir, təcrübəli "sışşiklər" belə oradan bir qəpik tapa bilməz.

Nə isə. Çox fikirdən, götür-qoydan sonra belə qərara gəldim ki, əlimə gələn rüşvətdən bir balaca "ekonomiya" edib gizlədim, yemək pulunu, pivə, çay, çörək pulunu on dəfə dostlarım verəndə heç olmasa bir dəfə də mən verim.

Bəs harada, necə gizlədim? Şalvar-pencəyin ciblərində gizlətmək boş şeydir. Onları astarınadək axtarıb ələk-vələk edəndən sonra arvadım qızlarıma ötürür. Sanki qızıl mədənində işləyən bir adamı gömrük məntəqəsinin əməkdaşları yoxlayır. Vallah, heç onlar da belə axtarmır. Hə, arvadımdan geri qalmayan qızlarım isə bu azmış kimi şalvar-pençəkdən sonra hələ corablarımın, ayaqqabılarımın içini də axtarırlar...

***

Nə başınızı ağrıdım, xeyli fikirləşdikdən sonra qərara gəldim ki, pulumu siqaret qutusunun içində, cığara kağızının arxasında gizlədim. Elə də etdim. Xoşbəxtlikdən həmin gün 10 "şirvan" qazancım olmuşdu. 50 minlikdən birini qutuda gizlətdikdən sonra özümdən razı halda evə zəng vurdum:

– Arvad, yanıma 5 qonağım gəlib (yəni, 5 "şirvan" qazanc gəlib), nə alım gətirim?

Cib axtarmaqda tayıbərabəri olmasa da "him-cim" məsələsində yaman "tupoy" idi. Odur ki, söz ağzımdan çıxar-çıxmaz qışqırdı:

– Lazım deyil, başından rədd elə, çıxıb getsinlər.

– Niyə?

– Ay gic, necə yəni niyə? Məgər evdə dişə dəyməli bir şey var ki? Yoxsa düşünürsən ki, yenə də Nazpəri özünü oda-közə vuracaq, yox! Daha keçdi o günlər. Qırılmışların qədrimi nə bildi ki, təzə qonaqların da bilsin? Bir də deyirsən ki, alıb gətirim. Axı nəylə alırsan, necə alırsan?

– Maaş veriblər...

– Maaşı verirlər?! Oy, nə yaxşı... onda mən qaçdım...

Bu, iş yoldaşım Nazlı idi. "Maaş" sözünü eşitcək elə qışqırdı ki, xəttin o başında arvadımın nə dediyini anlaya bilmədim. Odur ki, "trubka"nı üfürə-üfürə yenidən təkrar etdim:

– Arvad, eşidirsən, maaş veriblər...

– Gözlərim aydın, nə böyük hadisə baş verib? 3 aydan sonra, nəhayət, Səftərqulu maaş alıb...onu da özü ağılda gicbəsərlərə xərcləmək istəyir... Məni yaxşı dinlə. Bir qəpiyinə də toxunma ha, ciyərini çıxararam. Bilirsən ki, nə qədər dərdimiz var...

– Bilirəm, ay arvad, bilirəm.

– Yalansa dilin qurusun... Əgər bilirsənsə o gicbəsər qonaqları niyə gətirirsən?!

– Ay Nazpəri...

– Çor Nazpəri, sözümə qulaq as. Yenə deyirəm, bu evə qonaq-zad gətirmə. Pulu da o söz-qəpiyinə kimi...

– Ayıb olsun. – Nazlının qışqırtısı istər-istəməz fikrimi yayındırdı. – Mən səni ciddi kişi bilirdim. Ə, indi də məni dolamısan?! Hanı bəs maaş?

"Trubka" qulağımda Nazlıya tərəf döndüm:

– Nə maaş?!

– Necə yəni nə maaş?! Bəs bayaq demədin ki, maaş verirlər. Mən axmaq da gedib mühasibatlığı ələk-vələk edirəm. Daha sənə heç sözüm yoxdur. Heç səndən gözləməzdim. Heç...

– Nazlı xanım...

– Xanım arvadındır...

– Nazlı...

– Bu gündən sən adlı adam tanımıram. Daha məni dindirmə...

– Ay Səfi, heeyy!!!

Nazpəri idi. Xəttin o başından gücü gəldikcə qışqırırdı:

– Adə, orada kiminlə danışırsan?

– Nazlı ilə..

– Danışarsan da...Nazlı olan yerdə gözünə Nazpəri görünməz ki. Məndən cavan... gözəl...

– Sən nə danışırsan, arvad. Vallah elə deyil. Ürəyinə heç nə gəlməsin. O mənim iş yoldaşımdır.

– Həm də könül dostundur...

– Yaxşı də... Sən lap ağ elədin...

– Belə yerdə deyirlər ki, oğru elə bağırdı...

– Vallah elə deyil, billah elə deyil...

– Onda de görüm nə istəyir səndən?

– Saatı soruşurdu.

– "Svidaniyası" var?! Məgər sən yanında deyilsən?! Daha saatı niyə soruşur?!

– Nazpəri, yetər... Gələrəm evdə danışarıq...

– Yox, indi danış...

– Axı sənə dedim...

– Tez gəl. Pulu qəpiyinədək gətir. Qonaqlarını da rədd elə...

Cavab verə bilmədim. Nazpəri sözünü bitirər-bitirməz dəstəyi telefonun üstünə çırpmışdı...

***

Gözlədiyimin əksinə olaraq Nazpəri məni çox mehribanlıqla qarşıladı:

– Qayınanan çox istəyir, yemək üstə gəlib çıxdın. Yaxşı dolma bişirmişəm. Keç əllərini yu...

İşimi bir az da ehtiyatlı tutmaq üçün pencəyimi asılqandan asdım. İsti-isti 50 minliyi Nazpərinin ovcuna basıb mətbəxə keçdim. Siqaret qutusunu və alışqanı stolun üstünə qoyub hamama qayıtdım. Yuyunub qurulandım.

Hamı bir nəfər kimi süfrə arxasında məni gözləyirdi. Elə yenicə əyləşmişdim ki, gözüm qızıma sataşdı. Siqaretləri qutudan çıxarıb qızıl suyuna çəkilmiş "portsiqara" yığırdı.

Ürəyimə qara qanlar axa-axa işin axırını gözlədim. "Bu dəqiqə fırıldağımın üstü açılacaq. Yox, deyəsən hiss etmədi. Hə, axı kağızın arxasındadır. Ağlına gəlməz..." Birdən elə bil başıma bir qazan soyuq su tökdülər. Qızım, tamam boşaldandan sonra pəncərəni açıb qutunu küçəyə atdı.

Artıq çörək deyil, elə bil zəhər yeyirdim. Bütün fikrim küçədə – siqaret qutusunun yanında qalmışdı. "Bir şey ki, doqquzuncu mərtəbədən atılsın onun axırı nə olar?! Bəlkə də, göydə ikən külək apardı. Eh, heyf sənə, 50 minlik! Yox, əl üzmək lazım deyil. Gedib axtaracağam..."

– A kişi, nə yaman fikrə gedibsən?!

Diksinən kimi oldum. Amma tez də özümü ələ aldım. "Bundan yaxşı fürsət olmaz":

– Heç, nə isə ürəyim qısılır. Gedim bir az havamı dəyişim, – deyə heç bir cavab gözləmədən pencəyimi çiynimə salıb aşağı düşdüm. Gözüm siqaret qutusunu axtarırdı. Hayana boylandım – orada bir "VİCEROY" gördüm.

İndi gəl bunlardan baş aç görüm necə açırsan?! Mən bədbəxt nə bilim qutum hansıdır?!

Daha utanmağı buraxıb ayağımla bütün qutuları bir yerə topaladım. "Hə, indi onları bir tərəfə aparıb yoxlamaq olar. Əvvəlcə bir yuxarı boylanım. Görəsən heç baxan var? Hə odur... Nazpəri pəncərə önündə dayanıb, necə də qəmlidir. Bəs necə? Başqa cür ola da bilməz. Axı ərinin "ürəyi qısılıb"... Xa-xa-xa. Amma yaman kələk gəldim ha. Nə isə, durmaq yeri deyil. Tez pulu tapmaq lazımdır...

Lotareya yoxlayırmış kimi hər qutunu açdıqca allaha yalvarırdım. Nəhayət, pulu tapdım. "Şükür" – deyə təzəcə cibimə qoymuşdum ki, qızlarım qaça-qaça mənə yanaşdılar:

– Ata, indi necəsən? Ürəyin ağrımır ki?

Özümü o yerə qoymadım:

– Yox...İndi nisbətən yaxşıyam...

– Onda gəl yuxarı qalxaq. Anam çox narahatdır. Həm də bütün qonşular baxır. Ayıbdır. Soruşurlar ki, o qalstuklu kişi zibillikdə nə axtarır. Gedək, ata, gedək.

***

Pul gizlətməyin mənə ziyanından başqa heç bir xeyri olmadı. Əvvəla, mən yuxuya gedəndən sonra Nazpəri ciblərimə yenə də "ütü çəkdi" və hava işıqlanar-işıqlanmaz gur səsi otağı götürdü.

– A kişi, bəs deyirdin cəmi 5 "şirvan" xeyrim olub? Bəs o biri 50 minlik nədir? Onu niyə verməyibsən?

– Onu... onu... o da müdirin payıdır...

– Nazlının?!

– Sən də danışmağa söz tapdın dəəə. Nazlı nə vaxtdan müdir olub?!

– Nazlı sənin üçün müdir nədir, allahdır ey, allah... Odur ki, o puldan gözünü çək...

– Eeehh! Deyəsən, sən bütün günü danışacaqsan. Mən... Mən işə gecikirəm...

**Qapını çırpıb təzəcə küçəyə çıxmışdım ki, gördüm həyətə xeyli adam toplaşıb. Hamısı da mənə sarı boylanır. Doğrusu, maraq məni boğsa da soruşa bilmədim. Axı işə gecikirdim.Ona görə də avtobus dayanacağına tərəf qaçmağa başladım. Mən qaçdıqca qonşu uşaqları da arxamca yüyürür, bir-birini xəbərdar edirdilər:**

**– Çox yaxınlaşmayın ha... Anam deyir ki, biçarə Səftərqulu dəli olub. Dünən zibillikdə eşələnirmiş...**

**Yaşar Vəliyev**